UOT 314

KAZIM NAĞIYEV

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA ƏHALİNİN TƏBİİ HƏRƏKƏT GÖSTƏRİCİLƏRİ VƏ ONLARIN DƏYİŞİLMƏSİ DİNAMİKASI

*Məqalədə Naxçıvan Muxtar Respublikasında əhalinin təbii hərəkətinə dair məlumatlar öz əksini tapmış, həmçinin əhalinin təbii hərəkətində baş verən dəyişikliklər, o cümlədən şəhər və kənd yerlərində əhalinin doğum, ölüm və təbii artım göstəricilərinə dair statistik məlumatlar təhlil edilmişdir. Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, 2000-2019-cu illər ərzində muxtar respublikada əhalinin ölüm səviyyəsi və xüsusilə də 1 yaşınadək uşaqlar arasında ölənlərin həm mütləq sayı, həm də hər 1000 nəfər diri doğulana görə onun səviyyəsi əhəmiyyətli dərəcədə azalmışdır.*

**Açar sözlər:** *insan potensialı, doğum, ölüm, təbii artım.*

Əhali forma və məzmunundan asılı olmayaraq, bütün cəmiyyətlərdə istehsal prosesinin baş verməsi və onun arasıkəsilmədən təkrarlanması üçün zəruri şərtdir. Bu şərtin reallaşması isə əhalinin təbii təkrar istehsal göstəricilərini özündə əks etdirən demoqrafik proseslər vasitəsilə reallaşır. Başqa sözlə desək, konkret ölkə və ərazi daxilində insan potensialının yaranıb inkişaf etməsinin başlıca mənbəyini həmin ölkə və ərazidə yaşayan əhalinin təbii təkrar istehsalı prosesi (doğum, ölüm və təbii artımı) təşkil edir [2, s. 79].

Əhalinin təbii təkrar istehsalı dedikdə, nəslin dəyişilməsi vasitəsilə onun yeniləşməsi prosesi başa düşülür. Onun səviyyəsi isə əhalinin doğum, ölüm əmsalları və bunlar arasındakı nisbətlə müəyyən edilir. Əhalinin təbii təkrar istehsalı səviyyəsinə təsir edən amillər bütünlükdə götürüldükdə onun sayı ilə yanaşı demoqrafik quruluşuna da təsir göstərir. Əhalinin demoqrafik quruluşu dedikdə - onun müəyyən əlamətləri üzrə bölünməsi, daha doğrusu, əhalinin yaş-cins və ailə tərkibi, etnik, təhsil səviyyəsi və demoqrafik hərəkət tərzi tipinə görə quruluşu, sosial və iqtisadi qruplarına görə tərkibi və sair başa düşülür [3, s. 58, 59].

1991-2019-cu illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin doğum səviyyəsi azalmağa doğru meyl etmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikasında əhalinin hər 1000 nəfərinə görə doğum səviyyəsi 59,6% azalaraq 1991-ci ildəki 29,2 nəfərdən 2019-cu ildə 11,8 nəfərə, təbii artım səviyyəsi isə 69,7% azalaraq 24,1 nəfərdən 7,3 nəfərə düşmüşdür. 1991-ci ilə nisbətən 2000-ci ildə Muxtar Respublikada əhalinin hər 1000 nəfərinə görə doğum səviyyəsi 44,9% azalaraq 29,2 nəfərdən 16,1 nəfərə, təbii artım səviyyəsi 55,6% azalaraq 24,1 nəfərdən 10,7 nəfərə düşmüş, 2000-ci ilə nisbətən 2009-cu ildə isə əhalinin hər 1000 nəfərinə görə doğum səviyyəsi 21,7% artaraq 16,1 nəfərdən 19,6 nəfərə, təbii artım səviyyəsi 33,6% artaraq 10,7 nəfərdən 14,3 nəfərə qalxmışdır. 2009-cu ilə nisbətən 2019-cu ildə isə əhalinin hər 1000 nəfərinə görə doğum səviyyəsi 39,8% azalaraq 19,6 nəfərdən 11,8 nəfərə, təbii artım səviyyəsi isə 48,9% azalaraq 14,3 nəfərdən 7,3 nəfərə düşmüşdür.

## Naxçıvan Muxtar Respublikasında cins üzrə doğulanlar, ölənlər və təbii artım (ilin sonuna nəfər)

| Göstəricilər / İllər | Kişilər | | | Qadınlar | | |
|---|---|---|---|---|---|---|
| | Doğulanların sayı | Ölənlərin sayı | Təbii artım | Doğulanların sayı | Ölənlərin sayı | Təbii artım |
| **Şəhər və kənd yerləri üzrə** | | | | | | |
| 2000 | 3093 | 1035 | 2058 | 2712 | 901 | 1811 |
| 2001 | 2995 | 967 | 2028 | 2458 | 1000 | 1458 |
| 2002 | 2811 | 1059 | 1752 | 2489 | 986 | 1503 |
| 2003 | 2920 | 1055 | 1865 | 2484 | 1073 | 1411 |
| 2004 | 3100 | 1063 | 2037 | 2715 | 955 | 1760 |
| 2005 | 3382 | 1101 | 2281 | 2968 | 1010 | 1958 |
| 2006 | 3106 | 1113 | 1993 | 2705 | 937 | 1768 |
| 2007 | 4024 | 1067 | 2957 | 3562 | 966 | 2596 |
| 2008 | 4126 | 1131 | 2995 | 3576 | 1016 | 2560 |
| 2009 | 4167 | 1050 | 3117 | 3685 | 1059 | 2626 |
| 2010 | 5733 | 1031 | 4702 | 4383 | 1013 | 3370 |
| 2011 | 5287 | 1087 | 4200 | 5117 | 938 | 4179 |
| 2012 | 5398 | 1091 | 4307 | 5127 | 915 | 4212 |
| 2013 | 5168 | 1009 | 4159 | 4595 | 992 | 3603 |
| 2014 | 3536 | 944 | 2592 | 3087 | 914 | 2173 |
| 2015 | 3511 | 954 | 2557 | 3120 | 905 | 2215 |
| 2016 | 3390 | 973 | 2417 | 3120 | 877 | 2243 |
| 2017 | 2899 | 1016 | 1883 | 2782 | 954 | 1828 |
| 2018 | 2795 | 1048 | 1745 | 2510 | 1007 | 1503 |
| 2019 | 2853 | 1081 | 1772 | 2562 | 999 | 1563 |
| **Şəhər yerləri üzrə** | | | | | | |
| 2000 | 717 | 279 | 438 | 653 | 230 | 423 |
| 2001 | 776 | 275 | 501 | 535 | 266 | 269 |
| 2002 | 716 | 311 | 405 | 574 | 280 | 294 |
| 2003 | 717 | 309 | 408 | 635 | 299 | 336 |
| 2004 | 730 | 334 | 396 | 630 | 267 | 363 |
| 2005 | 750 | 331 | 419 | 647 | 293 | 354 |
| 2006 | 729 | 339 | 390 | 650 | 274 | 376 |
| 2007 | 1302 | 331 | 971 | 1227 | 270 | 957 |
| 2008 | 1049 | 336 | 713 | 883 | 290 | 593 |
| 2009 | 1025 | 310 | 715 | 955 | 297 | 658 |
| 2010 | 1462 | 290 | 1172 | 1074 | 272 | 802 |
| 2011 | 1418 | 296 | 1122 | 1261 | 270 | 991 |
| 2012 | 1453 | 339 | 1114 | 1320 | 246 | 1074 |
| 2013 | 1353 | 303 | 1050 | 1232 | 244 | 988 |
| 2014 | 944 | 308 | 636 | 811 | 268 | 543 |
| 2015 | 964 | 321 | 643 | 824 | 268 | 556 |
| 2016 | 955 | 350 | 605 | 880 | 295 | 585 |
| 2017 | 811 | 414 | 397 | 797 | 345 | 452 |
| 2018 | 750 | 354 | 396 | 700 | 331 | 369 |
| 2019 | 746 | 323 | 423 | 628 | 303 | 325 |

| Kənd yerləri üzrə | | | | | | |
|---|---|---|---|---|---|---|
| 2000 | 2376 | 756 | 1620 | 2059 | 671 | 1388 |
| 2001 | 2219 | 692 | 1527 | 1923 | 734 | 1189 |
| 2002 | 3121 | 755 | 2366 | 3049 | 723 | 2326 |
| 2003 | 2873 | 744 | 2129 | 2553 | 642 | 1911 |
| 2004 | 3038 | 880 | 2158 | 2849 | 628 | 2221 |
| 2005 | 2603 | 698 | 1905 | 2300 | 674 | 1626 |
| 2006 | 2277 | 792 | 1485 | 2044 | 712 | 1332 |
| 2007 | 2329 | 742 | 1587 | 2085 | 656 | 1429 |
| 2008 | 2278 | 688 | 1590 | 1805 | 770 | 1035 |
| 2009 | 3142 | 740 | 2402 | 2730 | 762 | 1968 |
| 2010 | 4271 | 741 | 3530 | 3309 | 741 | 2568 |
| 2011 | 3869 | 791 | 3078 | 3856 | 668 | 3188 |
| 2012 | 3945 | 752 | 3193 | 3807 | 669 | 3138 |
| 2013 | 3815 | 706 | 3109 | 3363 | 748 | 2615 |
| 2014 | 2592 | 636 | 1956 | 2276 | 646 | 1630 |
| 2015 | 2547 | 633 | 1914 | 2296 | 637 | 1659 |
| 2016 | 2435 | 623 | 1812 | 2240 | 582 | 1658 |
| 2017 | 2088 | 602 | 1486 | 1985 | 609 | 1376 |
| 2018 | 2045 | 694 | 1351 | 1810 | 676 | 1134 |
| 2019 | 2107 | 758 | 1349 | 1934 | 696 | 1238 |

Cədvəldən göründüyü kimi 2000-ci illə müqayisədə 2019-cu ildə Naxçıvan Muxtar Respublikasında doğulanlar arasında oğlan uşaqlarının sayı 240 nəfər və ya 7,8% azalaraq 3093 nəfərdən 2853 nəfərə, təbii artım isə 286 nəfər və ya 13,9% azalaraq 2058 nəfərdən 1772 nəfərə düşmüş, qız uşaqlarının sayı isə 150 nəfər və ya 5,5% azalaraq 2712 nəfərdən 2562 nəfərə, təbii artım isə 248 nəfər və ya 13,7% azalaraq 1811 nəfərdən 1563 nəfərə düşmüşdür. Şəhər yerlərində doğulanlar arasında oğlan uşaqlarının sayı 29 nəfər və ya 4,0% artaraq 717 nəfərdən 746 nəfərə qalxmış, təbii artım isə 15 nəfər və ya 3,4% azalaraq 438 nəfərdən 423 nəfərə düşmüş, qız uşaqlarının sayı isə 25 nəfər və ya 3,8% azalaraq 653 nəfərdən 628 nəfərə, təbii artım isə 98 nəfər və ya 23,2% azalaraq 423 nəfərdən 325 nəfərə düşmüşdür. Kənd yerlərində isə doğulanlar arasında oğlan uşaqlarının sayı 269 nəfər və ya 11,3% azalaraq 2376 nəfərdən 2107 nəfərə, təbii artım isə 271 nəfər və ya 16,7% azalaraq 1620 nəfərdən 1349 nəfərə düşmüş, qız uşaqlarının sayı isə 125 nəfər və ya 6,1% azalaraq 2059 nəfərdən 1934 nəfərə, təbii artım isə 150 nəfər və ya 10,8% azalaraq 1388 nəfərdən 1238 nəfərə düşmüşdür.

Naxçıvan Muxtar Respublikasında əhalinin doğum səviyyəsinin azalmasına bir sıra demoqrafik, sosial-iqtisadi, milli-etik xarakterli amillər təsir göstərmişdir. Bu amillərə əhalinin maddi və mədəni həyat səviyyəsinin dəyişilməsi və təhsil səviyyəsinin yüksəlməsi, ailədə uşaqların sayının şüurlu surətdə nizamlanması proseslərinin güclənməsi, nikahların və boşanmaların sayındakı dəyişikliklər və s. daxildir.

Əhalinin təbii təkrar istehsal səviyyəsinə təsir edən digər mühüm amil onun ölüm səviyyəsidir. Demoqrafiya elmində nəslin kəsilməsi prosesi kimi başa düşülən ölüm səviyyəsinə təsir edən amillər də müxtəlif olub, ilk növbədə, əhalinin həyat şəraiti, səhiyyənin inkişafı və əhalinin tibbi kadrlarla təmin edilmə dərəcəsi, qidalanması səviyyəsi, sanitariya və gigiyena xidmətinin vəziyyəti və sairədən asılıdır (3, s. 59). Ölüm doğumdan sonra ikinci mühüm

demoqrafik hadisədir. Demoqrafiyada ölüm dedikdə – nəslin kəsilməsi prosesi başa düşülür və ona müxtəlif yaşlarda baş verən ölüm hallarından əmələ gələn, real və ya şərti nəslin kəsilməsi ardıcıllığının məcmusu ilə müəyyən edilən kütləvi statistik proses kimi baxılır [2, s. 115].

Naxçıvan Muxtar Respublikası əhalisinin sayca dəyişməsinə təsir edən mühüm amillərdən biri də əhalinin ölüm səviyyəsi olmuşdur. 1991-2019-cu illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin hər 1000 nəfərinə görə ölüm səviyyəsi 11,8% azalaraq 1991-ci ildəki 5,1 nəfərdən 2019-cu ildə 4,5 nəfərə düşmüşdür. Muxtar respublikada əhalinin hər 1000 nəfərinə düşən ölüm səviyyəsi 1991-ci ilə nisbətən 2000-ci ildə isə 5,9% artaraq 5,1 nəfərdən 5,4 nəfərə qalxmışdır. Əhalinin hər 1000 nəfərinə düşən ölüm səviyyəsi 2000-ci ilə nisbətən 2009-cu ildə 1,9% azalaraq 5,4 nəfərdən 5,3 nəfərə, 2009-cu ilə nisbətən 2019-cu ildə isə 15,1% azalaraq 5,3 nəfərdən 4,5 nəfərə düşmüşdür.

2009-cu illə müqayisədə 2019-cu ildə Naxçıvan Muxtar Respublikasında ölənlər arasında kişilərin sayı 31 nəfər və ya 2,9% artaraq 1050 nəfərdən 1081 nəfərə qalxmış, qadınların sayı isə 60 nəfər və ya 5,7% azalaraq 1059 nəfərdən 999 nəfərə düşmüşdür. Şəhər yerlərində ölənlər arasında kişilərin sayı 13 nəfər və ya 4,2% artaraq 310 nəfərdən 323 nəfərə qalxmış, qadınların sayı isə 6 nəfər və ya 2,0% artaraq 297 nəfərdən 303 nəfərə qalxmışdır. Kənd yerlərində isə ölənlər arasında kişilərin sayı 18 nəfər və ya 2,4% artaraq 740 nəfərdən 758 nəfərə qalxmış, qadınların sayı isə 66 nəfər və ya 8,7% azalaraq 762 nəfərdən 696 nəfərə düşmüşdür.

Əhalinin təbii hərəkəti nəsillərin arasıkəsilməz bərpası deməkdir. Bu cəhətdən əhalinin doğum, ölüm və təbii artım göstəriciləri ilə bərabər anaların dünyaya gətirdiyi uşaqların qorunması məqsədilə onların 1 yaşa qədər ölənlərin miqdarı da əsas amil sayılır [1, s. 225]. Muxtar respublikada 1 yaşınadək uşaqlar arasında ölənlərin həm mütləq sayı, həm də hər 1000 nəfər diri doğulana görə onun səviyyəsi azalmışdır. Belə ki, 2000-2019-cu illərdə 1 yaşınadək uşaqlar arasında ölənlərin mütləq sayı 49 nəfər və ya 75,4% azalaraq 65 nəfərdən 16 nəfərə, hər 1000 nəfər diri doğulana görə isə onun səviyyəsi 8,2 nəfər və ya 73,2% azalaraq 11,2 nəfərdən 3,0 nəfərə, o cümlədən şəhər yerlərində 1 yaşınadək uşaqlar arasında ölənlərin mütləq sayı 9 nəfər və ya 64,3% azalaraq 14 nəfərdən 5 nəfərə, hər 1000 nəfər diri doğulana görə isə onun səviyyəsi 6,6 nəfər və ya 64,7% azalaraq 10,2 nəfərdən 3,6 nəfərə, kənd yerlərində isə 1 yaşınadək uşaqlar arasında ölənlərin mütləq sayı 40 nəfər və ya 78,4% azalaraq 51 nəfərdən 11 nəfərə, hər 1000 nəfər diri doğulana görə isə onun səviyyəsi 8,8 nəfər və ya 76,5% azalaraq 11,5 nəfərdən 2,7 nəfərə düşmüşdür.

Statistik məlumatların təhlilindən göründüyü kimi Naxçıvan Muxtar Respublikasında əhalinin ölüm səviyyəsi azalmağa doğru meyl etmiş, xüsusilə də 1 yaşınadək uşaqlar arasında ölənlərin həm mütləq sayı, həm də hər 1000 nəfər diri doğulana görə onun səviyyəsi əhəmiyyətli dərəcədə azalmışdır. Naxçıvan Muxtar Respublikasında əhalinin ölüm səviyyəsinin azalmasına bir sıra sosial-iqtisadi amillərin, o cümlədən əhalinin həyat şəraitinin yaxşılaşması, həmçinin muxtar respublikada səhiyyə sisteminin inkişafı, əhaliyə göstərilən səhiyyə xidmətinin yüksəldil-məsi amilinin də təsiri olmuşdur.

2009-2019-cu illər ərzində Naxçıvan Muxtar Respublikasında əhalinin doğum, ölüm və təbii artım göstəricilərində bir sıra dəyişikliklər baş vermişdir. 2009-cu illə müqayisədə 2019-cu ildə isə muxtar respublikada doğulanların sayı 2437 nəfər və ya 31,0% azalaraq 7852 nəfərdən 5415 nəfərə, ölənlərin sayı 29 nəfər və ya 1,4% azalaraq 2109 nəfərdən 2080 nəfərə, təbii artım isə 2408 nəfər və ya 41,9% azalaraq 5743 nəfərdən 3335 nəfərə düşmüşdür.

Naxçıvan Muxtar Respublikasının şəhər və hər bir inzibati rayonunda əhalinin təkrar istehsalı özünəməxsus inkişaf və məskunlaşmasındakı qanunauyğunluqlardan asılıdır. 2009-

2019-cu illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və ayrı-ayrı inzibati rayonlarında əhalinin doğum, ölüm və təbii artım göstəricilərinə nəzər salsaq görərik ki, 2009-cu illə müqayisədə 2019-cu ildə Naxçıvan şəhərində doğulanların sayı 403 nəfər və ya 29,8% azalaraq 1352 nəfərdən 949 nəfərə düşmüş, ölənlərin sayı 28 nəfər və ya 6,9% artaraq 403 nəfərdən 431 nəfərə qalxmış, təbii artım isə 431 nəfər və ya 45,4% azalaraq 949 nəfərdən 518 nəfərə düşmüşdür. Şərur rayonunda doğulanların sayı 512 nəfər və ya 25,6% azalaraq 2003 nəfərdən 1491 nəfərə, ölənlərin sayı 69 nəfər və ya 12,4% azalaraq 557 nəfərdən 488 nəfərə, təbii artım isə 443 nəfər və ya 30,6% azalaraq 1446 nəfərdən 1003 nəfərə düşmüşdür. Babək rayonunda doğulanların sayı 439 nəfər və ya 30,6% azalaraq 1434 nəfərdən 995 nəfərə, ölənlərin sayı 8 nəfər və ya 2,4% azalaraq 331 nəfərdən 323 nəfərə, təbii artım isə 431 nəfər və ya 39,1% azalaraq 1103 nəfərdən 672 nəfərə düşmüşdür. Ordubad rayonunda doğulanların sayı 361 nəfər və ya 41,4% azalaraq 871 nəfərdən 510 nəfərə düşmüş, ölənlərin sayı 22 nəfər və ya 8,7% artaraq 252 nəfərdən 274 nəfərə qalxmış, təbii artım isə 383 nəfər və ya 61,9% azalaraq 619 nəfərdən 236 nəfərə düşmüşdür. Culfa rayonunda doğulanların sayı 344 nəfər və ya 39,0% azalaraq 882 nəfərdən 538 nəfərə düşmüş, ölənlərin sayı 21 nəfər və ya 10,9% artaraq 192 nəfərdən 213 nəfərə qalxmış, təbii artım isə 365 nəfər və ya 52,9% azalaraq 690 nəfərdən 325 nəfərə düşmüşdür. Kəngərli rayonunda doğulanların sayı 131 nəfər və ya 20,9% azalaraq 626 nəfərdən 495 nəfərə, ölənlərin sayı 29 nəfər və ya 16,9% azalaraq 171 nəfərdən 142 nəfərə, təbii artım isə 102 nəfər və ya 22,4% azalaraq 455 nəfərdən 353 nəfərə düşmüşdür. Şahbuz rayonunda doğulanların sayı 136 nəfər və ya 33,4% azalaraq 407 nəfərdən 271 nəfərə, ölənlərin sayı 6 nəfər və ya 4,0% azalaraq 151 nəfərdən 145 nəfərə, təbii artım isə 130 nəfər və ya 50,8% azalaraq 256 nəfərdən 126 nəfərə düşmüşdür. Sədərək rayonunda doğulanların sayı 111 nəfər və ya 40,0% azalaraq 277 nəfərdən 166 nəfərə düşmüş, ölənlərin sayı 12 nəfər və ya 23,0% artaraq 52 nəfərdən 64 nəfərə qalxmış, təbii artım isə 123 nəfər və ya 54,7% azalaraq 225 nəfərdən 102 nəfərə düşmüşdür.

Statistik məlumatların təhlilindən göründüyü kimi 2009-cu illə müqayisədə 2019-cu ildə Naxçıvan Muxtar Respublikasının şəhər və ayrı-ayrı inzibati rayonlarında əhalinin doğum göstəricilərində ən çox azalma Ordubad (41,4%), Sədərək (40,0%) və Culfa (39,0%) rayonlarında, ölüm gostəricilərində artım Naxçıvan şəhərində (6,9%), Sədərək (23,0%), Culfa (10,9%) və Ordubad (8,7%) rayonlarında, ölüm gostəricilərində azalma isə Kəngərli (16,9%), Şərur (12,4%), Şahbuz (4,0%) və Babək (2,4%) rayonlarında, təbii artım göstəricilərində isə ən çox azalma Naxçıvan şəhərində (45,4%), Ordubad (61,9%), Culfa (52,9%), Sədərək (54,7%) və Şahbuz (50,8%) rayonlarında baş vermişdir.

Aparılan təhlillərdən aydın olur ki, 2009-cu illə müqayisədə 2019-cu ildə Naxçıvan Muxtar Respublikasında əhalinin doğum və təbii artım göstəricilərində azalma müşahidə olunsa da lakin ayrı-ayrılıqda illər üzrə muxtar respublikada doğum səviyyəsinin yüksək olması və ölüm səviyyəsinin isə tədricən azalması nəticəsində təbii artımın yüksək olması əhalinin artımını təmin etmişdir. Belə ki, 2009-2019-cu illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin sayı 61,8 min nəfər və ya 15,6% artaraq 397,3 min nəfərdən 459,1 min nəfərə, o cümlədən şəhər əhalisinin sayı 19,1 min nəfər və ya 16,6% artaraq 115,4 min nəfərdən 134,5 min nəfərə, kənd əhalisinin sayı isə 39,7 min nəfər və ya 14,1% artaraq 281,9 min nəfərdən 321,6 min nəfərə, həmçinin kişilərin sayı 29,9 min nəfər və ya 15,1% artaraq 197,8 min nəfərdən 227,7 min nəfərə, qadınların sayı isə 28,9 min nəfər və ya 14,5% artaraq 199,5 min nəfərdən 228,4 min nəfərə çatmışdır.

2019-cu ildə Naxçıvan Muxtar Respublikasında doğulanların sayı 5415 nəfər (kişilər üzrə 2853 nəfər, qadınlar üzrə 2562 nəfər), ölənlərin sayı 2080 nəfər (kişilər üzrə 1081 nəfər,

qadınlar üzrə 999 nəfər), təbii artım isə 3335 nəfər (kişilər üzrə 1772 nəfər, qadınlar üzrə 1563 nəfər) olmuşdur. Həmçinin şəhər yerlərində doğulanların sayı 1374 nəfər (kişilər üzrə 746 nəfər, qadınlar üzrə 628 nəfər), ölənlərin sayı 626 nəfər (kişilər üzrə 323 nəfər, qadınlar üzrə 303 nəfər), təbii artım isə 748 nəfər (kişilər üzrə 423 nəfər, qadınlar üzrə 325 nəfər) olmuşdur. Kənd yerlərində isə doğulanların sayı 4041 nəfər (kişilər üzrə 2107 nəfər, qadınlar üzrə 1934 nəfər), ölənlərin sayı 1454 nəfər (kişilər üzrə 758 nəfər, qadınlar üzrə 696 nəfər), təbii artım isə 2587 nəfər (kişilər üzrə 1349 nəfər, qadınlar üzrə 1238 nəfər) olmuşdur.

Yuxarıda qeyd olunan statistik məlumatlara əsasən doğulanlarla ölənlərin sayını müqayisə etsək görərik ki, 2019-cu ildə muxtar respublikada ümumi əhali üzrə doğulanların sayı ölənlərin sayından 2,6 dəfə, kişilər və qadınlar üzrə də həmçinin 2,6 dəfə çox olmuşdur. Həmin müqayisəni şəhər yerlərində aparsaq görərik ki, doğulanların sayı ölənlərin sayından 2,2 dəfə, kişilər üzrə 2,3 dəfə, qadınlar üzrə isə 2,1 dəfə, kənd yerlərində isə doğulanların sayı ölənlərin sayından 2,8 dəfə, kişilər və qadınlar üzrə də həmçinin 2,8 dəfə çox olmuşdur. 2019-cu ildə Naxçıvan Muxtar Respublikasının şəhər və ayrı-ayrı inzibati rayonlarında isə əhalinin doğum, ölüm və təbii artım göstəricilərinə nəzər salsaq görərik ki, həmin dövrdə Naxçıvan şəhərində doğulanların sayı (949 nəfər) ölənlərin sayından (431 nəfər) 2,2 dəfə çox olmuş, təbii artım isə 518 nəfər təşkil etmişdir. Şərur rayonunda doğulanların sayı (1491 nəfər) ölənlərin sayından (488 nəfər) 3,1 dəfə çox olmuş, təbii artım isə 1003 nəfər təşkil etmişdir. Babək rayonunda doğulanların sayı (995 nəfər) ölənlərin sayından (323 nəfər) 3,1 dəfə çox olmuş, təbii artım isə 672 nəfər təşkil etmişdir. Ordubad rayonunda doğulanların sayı (510 nəfər) ölənlərin sayından (274 nəfər) 1,9 dəfə çox olmuş, təbii artım isə 236 nəfər təşkil etmişdir. Culfa rayonunda doğulanların sayı (538 nəfər) ölənlərin sayından (213 nəfər) 2,5 dəfə çox olmuş, təbii artım isə 325 nəfər təşkil etmişdir. Kəngərli rayonunda doğulanların sayı (495 nəfər) ölənlərin sayından (142 nəfər) 3,5 dəfə çox olmuş, təbii artım isə 353 nəfər təşkil etmişdir. Şahbuz rayonunda doğulanların sayı (271 nəfər) ölənlərin sayından (145 nəfər) 1,9 dəfə çox olmuş, təbii artım isə 126 nəfər təşkil etmişdir. Sədərək rayonunda doğulanların sayı (166 nəfər) ölənlərin sayından (64 nəfər) 2,6 dəfə çox olmuş, təbii artım isə 102 nəfər təşkil etmişdir. Son illərdə Naxçıvan Muxtar Respublikasında tibbi tədbirlərin geniş vüsət alması və hər cür xəstəliyə qarşı aparılan mübarizə nəticəsində ölüm halları azalmağa doğru meyl etmiş, xüsusilə də 1 yaşınadək uşaqlar arasında ölənlərin həm mütləq sayı, həm də hər 1000 nəfər diri doğulana görə onun səviyyəsi əhəmiyyətli dərəcədə azalmış-dır. Daha doğrusu muxtar respublikada ölümün, xüsusilə də uşaq ölümünün qarşısının alınmasında böyük uğurlar əldə olunmuş və ölüm səviyyəsinin aşağı düşməsi ilə yanaşı əhalinin sayında artım baş vermişdir.

Naxçıvan Muxtar Respublikasında əhalinin sayı və quruluşu demoqrafik, sosial-iqtisadi, milli-mədəni və digər amillərin təsiri nəticəsində ayrı-ayrı tarixi inkişaf mərhələlərində müxtəlif forma və istiqamətlərdə dəyişmişdir. Belə ki, 2000-2020-ci illəri əhatə edən 20 il ərzində Naxçıvan Muxtar Respublikasında əhalinin sayı 100,8 min nəfər və ya 28,1% artaraq 358,8 min nəfərdən 459,6 min nəfərə, o cümlədən şəhər əhalisinin sayı 39,4 min nəfər və ya 40,9% artaraq 96,2 min nəfərdən 135,6 min nəfərə, kənd əhalisinin sayı isə 61,4 min nəfər və ya 23,4 % artaraq 262,6 min nəfərdən 324,0 min nəfərə, həmçinin kişilərin sayı 52,6 min nəfər və ya 29,7% artaraq 177,0 min nəfərdən 229,6 min nəfərə, qadınların sayı isə 48,2 min nəfər və ya 26,5% artaraq 181,8 min nəfərdən 230,0 min nəfərə çatmışdır. Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bütün sahələrini əhatə edən davamlı inkişaf, həmçinin sosial sahələrin və səhiyyə sisteminin kompleks şəkildə inkişafı, yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluq səviyyə-sinin yüksəldilməsi, yoxsulluğun azaldılması və digər sosial-iqtisadi tədbirlərin uğurla həyata keçirilməsi, həmçinin əhalinin ölüm səviyyəsinin və xüsusilə də 1

yaşınadək uşaqlar arasında ölənlərin həm mütləq sayının, həm də hər 1000 nəfər diri doğulana görə onun səviyyəsinin əhəmiyyətli dərəcədə azalması muxtar respublikada əhalinin sayının artması ilə nəticələnmişdir.

## ƏDƏBİYYAT


1. Əhmədov N. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı: Sabah, 2008, 452 s.
2. Muradov Ş.M. İnsan potensialı: əsas meyillər, reallıqlar, problemlər. Bakı: Elm, 2004, 660 s.
3. Muradov R.Ş. Müasir mərhələdə əhalinin məşğulluq quruluşunun formalaşması və təkmilləşdirilməsi problemləri. Bakı: Elm, 2006, 216 s.
4. www.statistika.nmr.az


***AMEA Naxçıvan Bölməsi***
**E-mail:** ***kazımnagiyev0000@gmail.com***

**Kazim Nagiyev**

## NATURAL POPULATION MOVEMENT INDICATORS AND THEIR DYNAMICS IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The paper contains information on the natural movement of the population in the Nakhchivan Autonomous Republic and changes in the natural movement of the population, including statistics on births, deaths, and natural increases in urban and rural areas. As a result of the research, it was found that between 2000 and 2019, the death rate of the population in the autonomous republic, especially the absolute number of deaths among children under one year of age, and its level per 1000 live births decreased significantly.

**Keywords:** *human potential, birth, death, natural growth.*

**Казим Нагиев**

## ПОКАЗАТЕЛИ ЕСТЕСТВЕННОГО ДВИЖЕНИЯ НАСЕЛЕНИЯ И ИХ ДИНАМИКА В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

В статье содержится информация о естественном движении населения в Нахчыванской Автономной Республике, а также об изменениях в естественном движении населения, в том числе статистические данные о рождаемости, смертности и естественном приросте в городской и сельской местности. В результате исследования было установлено, что в период с 2000 по 2019 год уровень смертности населения в автономной республике, и особенно абсолютное количество смертей среди детей до 1 года, и ее уровень на 1000 живорождений снизились значительно.

**Ключевые слова:** *человеческий потенциал, рождение, смерть, естественный рост.*

*(İqtisad elmləri doktoru, professor Nazim Əhmədov tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 14.07.2021**
**Son variant 30.08.2021**